# Vətən bizə əmanətdir

2020-ci ildə, 44 günlük müharibədə bütün dünya Azərbaycan gəncliyinin vətən sevgisinin şahidi oldu. Öz canlarını qurban verib torpaqlarımızı düşməndən azad edən qəhrəman oğullarımız bu Vətəni bizə əmanət qoyub getdilər.



Bununla da bugünkü gəncliyin, bizim üzərimizə böyük məsuliyyət qoydular. Şəhidlərimizin əmanətini, torpaqlarımızı, onun sərvətlərini qorumaq estafetini biz gənclər qəbul etmişik. Bizim haqqımız yoxdur ki, torpaqlarımızda yenidən kimlərinsə baş qaldırıb mənfur niyyətlərini həyata keçirmələrinə imkan verək.

Qarabağda olan milli sərvətlərimiz 30 il boyunca qanunsuz olaraq istismar edilib, Qarabağın təbiətinə ermənilər tərəfindən törədilən ekoloji cinayətlər nəticəsində böyük zərər dəyib. Təəssüf ki, Azərbaycanın Vətən müharibəsində qazandığı zəfər belə onları bu çirkin əməllərdən çəkindirmədi. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə təbii sərvətlərimizin qanunsuz istismarını bu gün də davam etdirirlər. Ölkəmizin müvafiq qurumları tərəfindən ərazidəki faydalı qazıntı yataqlarında monitorinqlərin aparılmasına sülhməramlılar tərəfindən şərait yaradılmır. Bizim tələbimiz Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinin təmin edilməsidir.

Hazırda bu məqsəd ətrafında Azərbaycan gəncləri Laçın-Xankəndi yolunda birləşib. Düzdür, 30 il Azərbaycan torpaqlarının bütün beynalxalq hüquq və normalarla tanınan suveren ərazilərinin işğalına göz yumanlar bu gün də sərvətlərimizin talanmasına eyni etinasızlıqla yanaşırlar. Hətta bizi yol bağlamaqda, humanizm prinsiplərini pozmaqda ittiham edirlər. Bu aksiyada fəal iştirak edən bütün Azərbaycan gəncləri adından bir daha dünyaya səslənirəm: heç bir qərəzli ittiham və kənar təzyiq cəhdləri bizi yolumuzdan, dinc mübarizəmizdən geri döndərə bilməz. Tələblərimiz yerinə yetirilməyənə qədər soyuq havaya, bütün çətinliklərə baxmayaraq mübarizə aparacağıq.

***Aqşin ORUCLU,***
***"Regional İnkişaf" İctimai Birliyinin əməkdaşı***

Azərbaycan.- 2022.- 28 dekabr.- S.9.